*AS1ÜS 068/088-2003*
***Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının***
***2003-cü il 12 sentyabr tarixli 116/3 saylı qərarı ilə***
***təsdiq edilmişdir***
***(Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının***
***2006-cı il 26 sentyabr tarixli 170/3 saylı və***
***2010-cu il 12 oktyabr tarixli 212/9 saylı***
***qərarları ilə edilmiş dəyişiklik və əlavələrlə)***

# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ÜZVLƏRİNİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ HAQQINDA

# Ə S A S N A M Ə

## *I. Ümumi müddəalar*

1.1. Azərbaycan Respublikasının Auditorlar Palatası (bundan sonra «Palata» adlandırılacaq) «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən yaradılmış, auditor xidmətinin dövlət tənzimlənməsini və inkişafını təşkil edən, mülkiyyətçilərin əmlak hüquqlarını, dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərini müdafiə edən, öz fəaliyyətində respublikanın qanunvericilik aktlarından irəli gələn tələblərə sərbəst auditorlar və auditor təşkilatları tərəfindən riayət olunmasına nəzarət edən müstəqil maliyyə orqanıdır.

1.2. Palatanın üzvlüyü fərdi və kollektivdir. Azərbaycan Respublikası Prezidentinin «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli fərmanına və bu fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar”a, Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 19 sentyabr tarixli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında» Əsasnaməyə müvafiq olaraq lisenziya almış sərbəst auditorlar və auditor təşkilatları, habelə Palatanın verdiyi rəsmi icazə əsasında Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olan xarici auditor təşkilatlarının filial və nümayəndəlikləri Palatanın üzvləridir.

1.3. Palatanın üzvləri öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununu, qüvvədə olan digər qanunvericilik aktlarını, «Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında» Əsasnaməni, Auditorlar Palatası Şurasının qərarlarını, Palata rəhbərliyinin əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tuturlar.

## *II. Palata üzvlərinin vəzifələri*

2.1. Auditor xidməti haqqında mövcud qanunvericiliyin tələblərinə riayət etmək.

2.2. Auditin aparılmasına dair beynəlxalq audit standartlarını və Palata tərəfindən təsdiq edilmiş təlimatları, tövsiyələri və metodik göstərişləri işdə düzgün tətbiq etmək, habelə icrası məcburi olan təlimat və metodik göstərişləri tam və dəqiq yerinə yetirmək.

2.3. Peşəkar Mühasiblərin Etika Məcəlləsinin və Auditorların Peşə Etikası Məcəlləsinin tələblərinə riayət etməklə özlərinin, sifarişçilərin və bütövlükdə cəmiyyətin mənafelərinin qorunmasını təmin etmək.

2.4. Palata tərəfindən təsdiq olunmuş hesabat formaları üzrə öz işləri barədə Palataya vaxtlı-vaxtında hesabat və məlumatlar vermək.

2.5. Palata Şurası tərəfindən müəyyən edilmiş müddətdə və məbləğdə üzvlük haqqı ödəmək.

2.6. Auditor xidməti göstərildiyi zaman əldə edilən məlumatı (məhkəmə orqanlarının tələb etdiyi hallar istisna olmaqla) məxfi saxlamaq.

2.7. «Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununda auditor xidməti sahəsində qoyulmuş qadağalara riayət etmək.

2.8. Bilik səviyyəsini və ixtisas hazırlığını daim artırmaq.

2.9. Auditor xidmətlərini vicdanla, obyektiv, düzgün və yüksək keyfiyyətlə həyata keçirmək.

2.10. Peşə vəzifələrini yerinə yetirərkən müstəqillik tələblərinə əməl etmək.

2.11. Auditor xidmətindən başqa, digər fəaliyyət növü ilə məşğul olmamaq.

2.12. Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərini və sifarişçi təsərrüfat subyekti ilə bağlanmış müqavilələrin şərtlərini pozduqda məsuliyyət daşımaq.

2.13. Palata rəhbərliyinin və Şurasının qərarı ilə Palata üzvlərinə aid edilmiş başqa vəzifələri yerinə yetirmək.

## *III. Palata üzvlərinin hüquqları*

3.1. Auditor fəaliyyəti ilə məşğul olmaq hüququ verən lisenziyanı aldığı və auditorların dövlət (uçot) qeydiyyatına götürüldüyü andan Palata üzvlərinin hüquqlarını əldə etmək və auditor xidməti göstərmək.

3.2. Fəaliyyətini sərbəst, yaxud auditor təşkilatının üzvü kimi həyata keçirmək.

3.3. «Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununa və sifarişçi ilə bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq auditin forma və metodlarını sərbəst müəyyənləşdirmək.

3.4. Sifarişçi ilə bağlanmış müqavilələrin şərtlərinə uyğun olaraq göstərilən auditor xidmətlərinin dəyərini sifarişçi ilə razılaşdırmaqla müstəqil müəyyən etmək.

3.5. Sifarişçi ilə bağlanmış müqaviləyə əsasən auditin keçirilməsinə başqa auditorları, ekspertləri və mütəxəssisləri cəlb etmək.

3.6. Yoxlanılan təsərrüfat subyekti tərəfindən audit üçün lazım olan sənədlər təqdim edilmədikdə, yoxlamanın aparılmasından imtina etmək.

3.7. Müəyyən edilmiş qaydada lisenziyanın geri alınması, ləğv edilməsi və fəaliyyətinin müvəqqəti olaraq dayandırılması barədə qərarla razılaşmadıqda, məhkəməyə müraciət etmək.

3.8. Palata Şurasına sərbəst auditorlardan və auditor təşkilatlarından nümayəndə seçmək və seçilmək.

3.9. Auditor adı almaq üçün Palata tərəfindən yaradılan imtahan komissiyasına sərbəst auditorlardan və auditor təşkilatlarından nümayəndə seçmək və seçilmək.

3.10. Palatanın Şurasında və müvafiq qurumlarında özünün fəaliyyəti ilə bağlı məsələlərin müzakirəsində şəxsən iştirak etmək və izahatlar vermək.

3.11. Palatanın rəhbərliyinə, Şurasına və struktur bölmələrinə öz hüquqlarının və qanuni mənafelərinin qorunması üçün müraciət etmək.

3.12. Auditor fəaliyyəti ilə bağlı Palatanın qarşısında məsələlər qaldırmaq, auditor xidmətinin yaxşılaşdırılmasına yönəlmiş təkliflər vermək və onların müzakirəsində iştirak etmək.

3.13. Palatanın keçirdiyi seminar, simpozium, görüş və elmi-praktik konfranslarda, ixtisas hazırlığı kurslarında və başqa tədbirlərdə iştirak etmək.

3.14. Palatadan öz fəaliyyəti üçün lazım olan qanunvericilik aktlarını, təlimatları, metodik vəsaitləri, kitab və jurnalları, audit təcrübəsinə aid yeniliklərlə bağlı informasiya və məlumatları əldə etmək, habelə Palatanın struktur bölmələrindən məsləhət yardımı almaq.

3.15. Palata rəhbərliyinin və Şurasının Palatanın üzvləri üçün müəyyən etdiyi digər hüquqları əldə etmək.

### *IV. Üzvlük haqları*

4.1. Palatada üzvlük haqqının məbləği Palata Şurasının qərarı ilə müəyyən olunur.

4.2. İlk üzvlük haqqı lisenziya alınan zaman, sonrakı illər üçün isə hər növbəti təqvim ilinin birinci yarımilliyində ödənilir.

### *V. Palatanın üzvlüyünə xitam verilməsi*

5.1. Auditor lisenziyasının və ya rəsmi icazənin müddəti bitdikdə, ləğv edildikdə Palatanın üzvlüyünə xitam verilir.

5.2. Sərbəst auditor, auditor təşkilatı, xarici auditor təşkilatının filialı (nümayəndəliyi) təqvim ili üzrə Auditorlar Palatasının üzvləri üçün müəyyən olunmuş məbləğdə üzvlük haqqını ödəmədikdə, Palata Şurasının qərarı ilə üzvlükdən çıxarıla bilər.